# İlham Əliyev fəaliyyət istiqamətlərini açıqladı

## Dövlət başçısı regionda vəziyyəti gərginləşdirməyə çalışanlara ciddi mesajlar verdi

Fevralın 14-də Prezident İlham Əliyevin Milli Məclisdə andiçmə mərasimi keçirildi.

Dövlət rəsmiləri və parlamentin deputatlarının iştirak etdiyi mərasimdə Prezident bəyan etdi ki, səlahiyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasına əməl edəcək, dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacaq, xalqa ləyaqətlə xidmət edəcək.

Prezident İlham Əliyevin andiçmə mərasimi ilə bağlı "Azərbaycan" qəzetinə danışan Milli Məclisin deputatı Aydın Mirzəzadə qeyd edib ki, inaqurasiya istənilən dövlətin siyasi həyatında çox əlamətdar bir hadisədir.

Deputat bildirib ki, ümummilli seçkidə qalib gəlmiş şəxsin Konstitusiyaya əməl edəcəyinə, cəmiyyətin problemlərini həll edəcəyinə dair and içməsi ciddi dövlətçilik atributlarından biridir: "Eyni zamanda inaqurasiya yeni seçilmiş dövlət başçısının fəaliyyət göstərəcəyi dövr üçün siyasi proqramının prioritetlərinin açıqlanması üçün bir məqamdır. Cənab Prezident öz fəaliyyətinin əsas istiqamətləri barəsində geniş auditoriyanı məlumatlandırdı. Bunların bir qismi onun fəaliyyətindən aydın idi, amma cənab Prezident bir daha onları diqqətə çatdırdı. Azərbaycan dövlətinin müstəqilliyinin qorunması, dövlətimizin inkişaf etdirilməsi, beynəlxalq birlikdə layiqli yer tutulması, Azərbaycanın müstəqil daxili, xarici siyasət yürütməsi, ərazi bütövlüyü məsələsinin daima diqqətdə olması kimi vacib məqamlara toxundu. Cənab Prezident həmçinin Ermənistanla münasibət məsələlərinə aydınlıq gətirərək normal münasibətlərin qurulmasını istədiyini bildirdi".

Deputat vurğulayıb ki, Prezident regionda vəziyyəti gərginləşdirməyə çalışan dövlətlərə də öz işləri ilə məşğul olması ilə bağlı ciddi mesajlar verib. Prezidentin çıxışı böyük maraqla dinlənilib və onun prioritetlərinin milli maraqlarımıza cavab verməsi açıq-aydın görünüb.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

---

Azərbaycan.- 2024.- 15 fevral, № 34.- S.9.